# Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyliyə

Əziz Prezident!

Sizi Sileziya Texnologiya Universitetinin kollektivi adından görkəmli alim, professor Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyi münasibətilə silsilə tədbirlərin təşkil edilməsi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Professor Yusif Məmmədəliyevin elmi irsi dünya kimya elmi və texnologiyasının inkişafına son dərəcə mühüm töhfədir. Onun kataliz və karbohidrogenlərin emalı sahəsində apardığı qabaqcıl tədqiqatlar müasir neft-kimya elminin bünövrəsinin formalaşmasında həlledici rol oynamış, eyni zamanda bu gün də bütün dünyada alimləri ruhlandıran innovativ həllərin meydana gəlməsinə təkan vermişdir. Onun nailiyyətləri göstərir ki, elmə olan ehtiras və geniş dünyagörüş elmin simasını dəyişməklə yanaşı, iqtisadi və texnoloji inkişafın xidmətində də dayana bilər.



Sileziya Texnologiya Universiteti Azərbaycanda görkəmli elm xadimlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri məmnunluqla izləyir. Bakı Elmi Konfransı kimi tədbirlər təkcə tarixi dəyərləndirmək imkanı deyil, eyni zamanda elmi-tədqiqat və innovasiya sahəsində beynəlxalq əməkdaşlığın daha da genişlənməsi üçün mühüm stimul yaradır.

Bir daha bu dəyərli təşəbbüs münasibətilə Sizi təbrik edir, müzakirələrinizdə məhsuldarlıq, ilhamverici çıxışlar və professor Yusif Məmmədəliyevin elmi irsi ruhunda elmin inkişafı yolunda yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

**Marek PAUELCZYK**
**Sileziya Texnologiya Universitetinin rektoru, professor**